# MÜSTƏQİLLİK İLLƏRİNDƏ RESPUBLİKA ELMİ-TEXNİKİ KİTABXANASININ MADDİ-TEXNİKİ BAZASININ VƏZİYYƏTİ

**M. MƏMMƏDOV**
***Pedaqogika üzrə fəlsəfə doktoru, dosent***

*Məqalədə Respublika Elmi-Texniki Kitabxanasının maddi-texniki bazasının müasir vəziyyəti, onun tərkib hissələri, ona verilən tələblər və son illərdə dövlət tərəfindən görülən tədbirlər öz əksini tapmışdır.*

***Açar sözlər:** Respublika Elmi-Texniki Kitabxanas,. Maddi-texniki baza və onun tərkibi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi, Respublika Patent, Standart və Normativ-texniki sənədlər Fondu.*

2000-ci il dekabr ayının 12-də ölkəmizin elmi-texniki və mədəni inkişafında xüsusi xidmətləri olan, ən zəngin elm xəzinələrindən biri sayılan Respublika Elmi-Texniki Kitabxanasının 70 illiyi tamam oldu. Bu möhtəşəm yubileyi müstəqil Azərbaycanın elmi ictimaiyyəti və çoxsaylı kitabxanaçılar ordusu böyük təntənə ilə qeyd etdi.

Təntənəli iclası dünya şöhrətli alim, Vətən elminin korifeylərindən biri, Respublika Nazirlər Kabineti yanında Elm və Texnika Komitəsinin sədri, akademik Azad Mirzəcanzadənin aparması yubileyi daha da şöhrətləndirdi. Sadə peşə sahibi olan kitabxanaçıların, bütövlükdə geniş mədəniyyət işçiləri ordusunun sevincinə səbəb oldu (3,3).

Akademik Azad Mirzəcanzadə giriş sözündə Respublika Elmi-Texniki Kitabxanasının 70 il ərzində keçdiyi şərəfli yola nəzər salaraq, Azərbaycan elminin inkişafında mühüm rol oynayan nüfuzlu ziyalılar ordusunun yetişib formalaşmasında, xüsusilə neftçi kadrların hazırlanmasında bu qocaman kitabxananın əvəzedilməz roluna böyük qiymət verdi. O qeyd etdi ki, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Elm və Texnika Komitəsinin Respublika Elmi-Texniki Kitabxanası fəaliyyət göstərdiyi onilliklər dövründə ölkəmizdə elm və mədəniyyətin inkişafına əhəmiyyətli töhfələr vermiş, milyonlarla oxucuya, o cümlədən elm və mədəniyyət xadimlərinə, alimlərə, ziyalılara, aspirantlara, tələbələrə, xalq təsərrüfatının müxtəlif sahələrində uğurla çalışan mütəxəssislərə səmərəli xidmət etmişdir. Kitabxanaçı peşəsini cəmiyyətdə mövcud olan peşələrin ən vaciblərindən biri hesab edən görkəmli alim kitabxanaçıların əməyini əsl fədakarlıq nümunəsi kimi dəyərləndirirdi.

Azad Mirzəcanzadə son sözündə Azərbaycanın müstəqilliyi şəraitində RETK-nın kollektivi qarşısında çox böyük vəzifələr durduğunu qeyd etdi. O, qısa müddət ərzində oxuculara xidmət işinin daha da yaxşılaşdırılmasını, kitabxana kitabının hər bir oxucuya çatdırılmasını, kitabxana işinin





kompyuterləşdirilməsini, RETK-nın internet şəbəkəsinə qoşulmasını, kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsini, o cümlədən müasir texniki avadanlıqların alınmasını, yeni düşüncə tərzinə malik gənc kitabxanaçı kadrların işə cəlb edilməsini məsləhət gördü, kitabxana kollektivinə gələcək fəaliyyətində böyük uğurlar arzuladı.

Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Əməkdar elm xadimi, BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Xələfov çıxışında kitabxananın 70 il müddətində keçdiyi şanlı tarixi yola nəzər saldı, onun fəaliyyətini xalqımızın mədəni tərəqqisi tarixində, elmi-texniki fikrin inkişafı və formalaşması sahəsində çox böyük fədakarlıq kimi qiymətləndirdi. O, həmçinin Azərbaycan elminin böyük təəssübkeşi akademik Azad Mirzəcanzadənin respublikamızda kitabxanaşünaslıq elminin inkişafına böyük qayğısını xüsusilə qeyd etdi, ona Azərbaycan kitabxanaçıları adından səmimi təşəkkürünü və minnətdarlığını bildirdi (3,4).

Göründüyü kimi, respublika əhəmiyyətli statusa malik olan kitabxanaları içərisində Respublika Elmi-Texniki Kitabxanasının özünəməxsus yeri və tarixi rolu olmuşdur. Əsası XX əsrin 20-ci illərində qoyulmuş bu kitabxana respublikamızın mədəni inkişafında, elmi-texniki fikrin təbliğində, texniki ziyalıların yetişdirilməsində, əhaliyə kitabxana xidmətinin təşkilində xüsusi xidmətlər göstərmiş, minlərlə oxucunun sevimli elm məbədgahına çevrilmişdir. (20-4). Oxucu nəsilləri bir-birini əvəz etdikcə kitabxana da daim yeniləşmişdir. Geniş oxucu kütləsinin, elmi ictimaiyyətin, ziyalıların dərin hörmətini qazanan, yüksək humanist və demokratik prinsiplərə xidmət edən Respublika Elmi-Texniki Kitabxanası fəaliyyət göstərdiyi 70 il müddətində böyük tarixi yol keçmiş, kitabxana tariximizi öz qiymətli təcrübəsi ilə zənginləşdirmişdir. Bu ərəfədə RETK-a dövlət qayğısı onun maddi-texniki bazasının möhkəmləndirilməsinə səbəb olmuşdur.

Məlumdur ki, həm sənaye, həm də mədəni-maarif müəssisələrinin fəaliyyətində maddi-texniki baza mühüm əhəmiyyət kəsb etdiyi kimi kitabxanaların fəaliyyətində də həlledici rol oynayır (4,284). Belə ki, maddi-texniki baza hər il müəssisənin işinin təşkilini və fəaliyyətini davam etdirməyin əsas elementidir. Kitabxana müəssisələrinin fəaliyyətinə diqqətlə nəzər saldıqda bu fikir bir daha təsdiq olunur. Yəni güclü maddi-texniki bazaya malik olmayan müasir kitabxananın müvəffəqiyyətlərindən danışmaq qeyri-mümkündür. Maddi-texniki bazanın kitabxananın əsas struktur elementlərindən biri olması haqqında elmi fikir son zamanlarda formalaşmışdır. Məlum olduğu kimi, dünya kitabxanaşünaslığında bu fikir birmənalı qarşılanmır. Bu yaxınlara qədər Amerika kitabxanaşünasları, o cümlədən kitabxanaşünaslıq sahəsində bir çox qiymətli monoqrafiyaları və nəzəri fikirləri olan C.X.Şira kitabxananın struktur quruluşunda üç elementin-

sənədin, oxucunun və kitabxanaçının olduğunu qeyd etmiş və bu quruluşu üç bucaqla müqayisə etmişdir (4,285).

XX əsrdə kitabxana işinin inkişafında baş verən mühüm nəzəri və praktiki dəyişikliklər hesablama texnikasının inkişafı, informasiya istehsalı və yayılması sahəsində əldə edilmiş yeni mütərəqqi iş üsulları, texniki vasitələrin, ilk növbədə kompyuter texnikasının kitabxana işinə tətbiqi maddi-texniki bazanın kitabxana işində mühüm və əvəzedilməz rola malik olmasını irəli sürdü. Dünya kitabxanaşünaslığında bu problemin həllinə ciddi elmi-tədqiqatlar həsr edilməyə və hərtərəfli öyrənilməyə başlandı. Belə tədqiqatlardan biri də görkəmli rus kitabxanaşünası Y.N.Stolyarovun tədqiqatı olmuşdur. O, özünün 1981-ci ildə nəşr etdirdiyi "Библиотека: Структурно-функсиональный подход" monoqrafiyasında bu problemin hərtərəfli tədqiqi əsasında maddi-texniki bazanın kitabxananın dördüncü elementi olması fikrini əsaslandırdı. Y.N.Stolyarovun bu fikri demək olar ki, kitabxanaşünas alimlər tərəfindən birmənalı qəbul edildi və rus kitabxanaşünaslığında öz həllini tapdı (4,285).

Görkəmli kitabxanaşünas alim, Azərbaycan milli kitabxanaşünaslıq elminin banisi prof. A.Xələfovun "Kitabxanaşünaslığa giriş" dərsliyində göstərir ki, maddi-texniki bazanın tərkibinə kitabxananın binası, avadanlığı, kitab fondu, mebeli, kitabxanadaxili nəqliyyat, kitabxana proseslərini avtomatlaşdırma və mexanikləşdirmə vasitələri, surətçıxarma, çoxaldıcı texnika, enerji ehtiyat hissələri, rabitə vasitələri, kompyuter və s. daxildir (4,286). Kitabxana sistemi daxilində kitabxana fəaliyyətinin optimallaşdırılması üçün maddi-texniki bazanı funksiyalarına görə iki əsas qrupa bölmək olar: 1) Kitabxana proseslərinin müntəzəm aparıldığı kitabxana binası, otaqlar, qurğular; 2) Kitabxana fəaliyyətinin müxtəlif növlərini vahid prosesdə birləşdirən texniki kommunikasiya qurğuları (texniki vasitələr və avadanlıqlar).

Göründüyü kimi, maddi-texniki baza kitabxana sisteminin bütün digər elementləri kimi, sistemdaxili əlaqələrin yaranmasında və qarşılıqlı əlaqələrin mürəkkəb proseslərində bilavasitə iştirak edir, bu elementlərin daha da təkmilləşməsi üçün şərait yaradır. Maddi-texniki bazalarının kitabxana sistemi daxilində əsas elementlərindən biri kimi qəbul edilməsi sistemin strukturunu daha da təkmilləşdirmiş, onun vəzifələrini aydınlaşdırmış, sistemin işləmə mexanizmini dinamik etmiş, kitabxana işinin və kitabxanaşünaslığın inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Maddi-texniki bazanın bir element kimi qəbulu kitabxanaşünaslığın bir sıra elmlərlə, məsələn: arxitektura ilə, bir çox texniki elmlərlə, kompyuter texnikası və informatika ilə əsas qarşılıqlı əlaqəsini ortaya çıxarmış, onların birgə fəaliyyəti üçün perspektivlər açmışdır. Kitabxanaşünaslığın elmi əlaqələri xeyli genişlənmiş, öz işini yeni-yeni elm və texnika sahəilə əlaqədar





qurmağa başlamışdır. Kitabxanaşünaslıq tədqiqatları ilə arxitekturanın, texniki elmlərin birgə fəaliyyətində hər bir elm sahəsinin öz öyrənmə obyektini müəyyənləşdirmək zərurəti meydana çıxmışdır. Məsələn, kitabxana binalarının layihələri hazırlananda arxitektorla, mühəndislə yanaşı, kitabxanaşünasın da iştirakı bunlardan daha səmərəli istifadə etməyə böyük kömək edə bilər.

Müasir şəraitdə kitabxanaların işinə hesablama texnikasının, ilk növbədə isə kompyuterlərin sürətlə daxil olması, kitabxana işinin daha intensiv avtomatlaşdırılması kitabxanaşünaslıq baxımından dərindən öyrənilməsi vəzifəsini qarşıya qoyur (4,287). Yüksək inkişaf maddi-texniki baza olmadan, daha doğrusu, belə bir bazanı yaradıb inkişaf etdirmədən, kitabxana sistemi elementləri ilə onun qarşılıqlı əlaqəsini yaratmadan müasir kitabxana haqqında danışmaq olmaz. Kitabxanaçı arxitektor, mühəndis, texnoloq, operator, proqramçı olmasa da, heç olmasa kitabxananın maddi-texniki bazasının tərkibinə daxil olan texniki vasitələrdən, maşınlardan başı çıxan, bu problemlərin heç olmasa ümumi məsələlərini bilən, onu kitabxana işinə tətbiq etməyi bacaran bir şəxs olmalıdır. Sürətlə inkişaf edən müasir cəmiyyətdə informasiyanın rolu və əhəmiyyəti durmadan artır. İnformasiyaya yaranan böyük tələbat informasiya müəssisəsi olan kitabxanaların qarşısında böyük vəzifələr qoyur. Bu vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmək, cəmiyyətin informasiya tələbatını ödəmək üçün kitabxanalar ilk növbədə öz maddi-texniki bazalarını daha da möhkəmləndirməli, kitabxana işini texniki vasitələrlə təmin etməli, kitabxanaların kompyuterləşdirilməsini sürətlə həyata keçirməlidirlər.

1980-ci illərin sonu 90-cı illərin əvvəllərində respublikada ümumi sənəd fondu 25 milyon nüsxədən çox olan 832 elmi-texniki və xüsusi kitabxana olmuşdur (2-23). Bu kitabxanalar əsasən iri sənaye şəhərlərinin idarə və müəssisələrində, sahəvi elmi-tədqiqat institutları və layihə-konstruktor təşkilatlarında fəaliyyət göstərmiş, mənsub olduqları təşkilatlar tərəfindən maliyyələşdirilmişlər. Lakin ölkədə bütün istiqamətlər üzrə gedən islahatlar, xüsusilə iqtisadi islahatlar, onun tərkib hissəsi olan dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesi və bununla əlaqədar olaraq yaranmış iqtisadi durum elmi-texniki kitabxanaların fəaliyyətinin kütləvi surətdə dayandırılmasına səbəb olmuşdur (2-23).

Müstəqillik qazanıldıqdan sonra müqəddəratının sahibi olan xalq milli mədəniyyətin inkişafı üçün geniş imkanlar əldə etdi. Bütün Azərbaycan xalqı kimi Respublika Elmi-Texniki Kitabxanasının əməkdaşları da xalqımızın müstəqilliyini böyük sevinc və iftixar hissi ilə qarşıladı. Kitabxananın kollektivi öz fəaliyyətini bilavasitə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, milli mədəniyyətimizin, elmimizin, ideologiyamızın, texnikamızın inkişafına yönəltdi. Kitabxana işində böyük istehsalat aparılmağa başladı. Kitabxana işi müstəqilliyin tələb etdiyi yeni şəraitə, milli ideologiyaya, yeni

demokratik prinsiplərə uyğun qurulmağa başladı. Hər şeydən əvvəl kitabxananın təşkilati cəhətdən tabeçiliyində məqsədyönlü dəyişiklik edildi. Azərbaycan Nazirlər Kabineti çox düzgün olaraq 1993-cü ildə kitabxananı Azərbaycan İqtisadiyyat Nazirliyinin tabeçiliyindən alıb Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsinin tabeçiliyinə verdi (3,32). Bu tədbirlər kitabxananın gələcək inkişafı üçün böyük perspektiv imkanlar açsa da iqtisadiyyatda baş verən böhran bütün sosial, mədəni sahəyə, xüsusilə kitabxana işinə də olduqca mənfi təsir göstərdi. Kitabxananın maliyyələşdirilməsi üçün ayrılan vəsait ciddi surətdə ixtisar edildi. Kitabxanaların maddi-texniki bazasını möhkəmləndirmək, kitab fondunu komplektləşdirmək, yeni jurnal və dövri mətbuat almaq üçün vəsait ayrılmaması onların fəaliyyətini olduqca zəiflətdi.

Bir çox istehsal müəssisələri işləmədiyi və ya tam gücü ilə işləmədiyi üçün onların elmi-texniki kitabxanaları da öz fəaliyyətini dayandırmışdır (2,26). Bu hər şeydən əvvəl, kitabxananın inkişafı üçün vəsaitin ayrılmaması ilə bağlı idi. 80-ci illərlə müqayisədə hazırda RETK-ya daxil olan yeni elmi-texniki ədəbiyyatın və müxtəlif informasiya daşıyıcılarının miqdarı 15-20 dəfə azalmışdır (3,33). Təkcə bunu göstərmək kifayətdir ki, son illər kitabxanaya Azərbaycandan xaricdə nəşr olunan rus və digər xarici dillərdə heç bir kitab demək olar ki, alınmır. Elmi-texniki referativ jurnalların alınmaması respublikada texniki elmlərin öyrənilməsinə olduqca mənfi təsir göstərir. Kitabxana binasının darısqallığı və namünasibliyi oxuculara xidmət işini yüksək səviyyədə təşkil etməyə imkan vermir. Bütün göstərilən çətinliklərə baxmayaraq, respublika iqtisadiyyatının və mədəniyyətinin tədricən inkişafı respublika Elmi-Texniki Kitabxanasının fəaliyyətinə ciddi müsbət təsir göstərmiş, kitabxana işi tədricən inkişafa başlamışdır.

1999-cu ildə respublikamızın Milli Məclisi “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Ölkəmizin mədəni həyatında mühüm hadisə olan bu qanun kitabxana işinə dair dövlət qanunvericiliyinin əsasını qoydu. Kitabxana işinin qanunla tənzim edilməsi üçün şərait yaratdı. Müasir dünyanın ən demokratik prinsiplərinə əsaslanan və ümumbəşəri sərvətlərdən bəhrələnən bu qanun işləməkdədir. Bunun əsas müddəaları tədricən dövlətimiz tərəfindən həyata keçirilir. Respublika Elmi-Texniki Kitabxanası da öz işini qanuna müvafiq həyata keçirir. Qanunun 8-ci maddəsinə görə, Elmi-Texniki Kitabxanaya respublika əhəmiyyətli elmi-sahəvi kitabxana statusu verilib və 15-ci maddəyə əsasən isə dövlət və qeyri-dövlət nəşriyyatlarından, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından profilinə uyğun olaraq 2 pulsuz məcburi nüsxə almaq hüququ verib (1). Kitabxana bu hüquqdan istifadə edə bilsə, heç şübhəsiz, kitabxana fondunun kompyuterləşdirilməsində ardıcıllıq və fondun dolğunluğu təmin oluna bilər.





Hazırda kitabxananın fondunda 20 milyon nüsxə çap vahidi saxlanılır. Kitabxana il ərzində 21 mindən artıq oxucuya xidmət edir. Xidmət şöbəsi, oxu zalları, depozitar və mübadilə fondu, kitabxanalararası abonoment bölməsi, patent və standartlar fondları daim oxucuların istifadəsindədir. Kitabxanada oxucuları informasiya fəaliyyəti ilə təmin etmək üçün böyük soraq məlumat fondu, kataloq və kartotekalar sistemi mövcuddur. Bu sistem müasir oxucunun bütün sorğu və tələbatlarını həyata keçirmək üçün ardıcıl informasiya işi təşkil edir. Həmçinin kitabxanada xarici dillərdə ədəbiyyatı oxucuların istifadəsinə verən dünyanın 18 ölkəsindən alınan 126 min çap vahidindən artıq kitabı olan ədəbiyyat fondu fəaliyyət göstərir (6).

Kitabxanada olan patent fondu dünyanın 35 ölkəsinin 27 dilində Beynəlxalq və Avropa patent idarələrinin sənədləri və müəllif şəhadətnamələri ilə komplektləşdirilmişdir. Respublikada yeganə olan bu fond bütün müəssisə və təşkilatlara xidmət edir. Burada geniş tədqiqatlar aparmaq imkanı vardır (3,35).

Respublikanın bütün vətəndaşlarına xidmət etmək sahəsində kitabxananın nəzdində olan Respublika standartlar və normativ-texniki sənədlər fondunun və 100 min nüsxədən artıq kitabı olan depozitar mühafizə fondunun xidmətləri xüsusi əhəmiyyətə malikdir.

Hazırda kitabxana və onun bölmələrində 14 şöbə fəaliyyət göstərir. Kitabxananın işçilərinin sayı 142 nəfərdir. Kitabxana işçilərinin 63 nəfərinin ali təhsili vardır ki, bunlardan 43 nəfəri ali ixtisas təhsilli yüksək ixtisaslı mütəxəssislərdir. 45 nəfərin isə orta ixtisas təhsili vardır (6). Kitabxananın belə yüksək ixtisaslı kadr potensialına malik olması, kitabxana işini dövrün tələbləri səviyyəsində qurmaq imkanı verir. Kitabxanada son zamanlar ənənəvi xidmət formaları ilə yanaşı, yeni xidmət formalarına da keçilmişdir. 1999-cu ilin əvvəllərindən başlayaraq kitabxanada qismən ödənişli məlumat-biblioqrafiya və informasiya xidmətləri tətbiq edilməyə başlanmışdır. Yeni xidmətin əhəmiyyətli cəhəti ondan ibarətdir ki, böyük maliyyə çətinliyi ilə üzləşən kitabxana pullu xidmətdən əldə etdiyi vəsaitə müasir oxucu üçün çox böyük əhəmiyyət kəsb edən dövri nəşrlər almağa başlamışdır. Bu da RETK-nın maddi-texniki təminatına qismən kömək edir.

Ümumiyyətlə, RETK-nın maliyyə xərcləri 2010-2015-ci illərin müsbət göstəricilərinə əsasən artmışdır. Hazırda kitabxananın idarə mənsubiyyəti olan Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi RETK-nın maddi-texniki təminatı üçün hər il maliyyə vəsaiti ayırır. Bu maliyyə vəsaiti vasitəsi ilə RETK-nın işçilərinin əmək haqqı, inventar xərci, təmir xərci, kommunikasiya xərci, nəqliyyat xərci, ezamiyyətlər xərci və s. ödənilir.

Nəticə olaraq qeyd edilməlidir ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bütün fəaliyyət sahəsində keçid dövrünə məxsus xüsusiyyətlər nəzərə çarpmağa başladı. Belə ki, bütün idarə və müəssisələrin

maddi-texniki bazası zəiflədi, müəyyən çətinliklər meydana çıxdı. Belə bir şəraitdə fəaliyyət göstərən Respublika Elmi-Texniki Kitabxanası da müəyyən problemlərlə üzləşdi.

Müstəqillik illərinin əvvəllərində RETK-nın maddi-texniki bazası, sənəd-informasiya fondunun vəziyyəti, oxuculara kitabxana-informasiya xidməti istənilən səviyyədə olmasa da son illərdə müəyyən inkişaf tendensiyaları baş verməkdədir. İstər maddi-texniki baza, istər fondun təşkili, istər xidmət işi müstəqilliyin son illərində yüksələn xətlə inkişaf edir. Bu, kitabxana statistikasında müxtəlif göstəricilərdə özünü əks etdirmişdir.

Müstəqillik illərində kitabxana işi sahəsində baş verən yeniliklər, informasiya proseslərini texniki kitabxananın işini daha geniş tətbiqi fondlarda sənədin, digər müxtəlif növ sənəd formalarının əhəmiyyətli yer tutması RETK-nı heç də öz tarixi ənənələrindən, kitabxanadan ictimai istifadə işinin təşkilinin əsas təşkilatçısı ideyasından uzaqlaşdırmamışdır.

Bu gün Respublika Elmi-Texniki Kitabxanası respublikanın nazirlik, şirkət, idarə və müəssisələri, elmi-tədqiqat və layihə institutlarına, eləcə də elm və texnika sahəsində tədqiqat aparan ayrı-ayrı şəxslərə, ali məktəb tələbələrinə məlumat-biblioqrafiya və kitabxana xidməti göstərən respublika mərkəzi hesab edilir. Kitabxana fondunun komplektləşdirilməsi üçün müxtəlif mənbələrdən istifadə edilir. Azərbaycan Kitabxana Kollektoru, Mərkəzi Kitabxana Kollektoru (Moskva), kitab ticarəti bülleteni, müxtəlif kitab mağazaları, müstəqil nəşriyyatlar və sair əsas komplektləşdirmə mənbələridir. Kitabxana fondunun komplektləşdirilməsində xüsusi ədəbiyyat növlərinə və sənədlərə əsasən elmi-texniki ədəbiyyata, patent və normativ-texniki sənədlərə verilir.

RETK respublikanın ən böyük kitabxanalarından biri olmaqla yanaşı ənənəvi kitab təbliği və kitabxana-biblioqrafiya xidmətindən əlavə müəllif şəhadətnamələri və patent ədəbiyyatı, normativ-texniki sənədlər, xarici ölkələrin jurnalları və sairəni özündə əks etdirən, elmi-tədqiqat işi və metodik fəaliyyətlə məşğul olan böyük müəssisədir.

Kitabxana işi müstəqilliyin tələb etdiyi yeni şəraitə, milli ideologiyaya, yeni demokratik prinsiplərə uyğun qurulmağa başladı. Görülən tədbirlər kitabxananın gələcək inkişafı üçün böyük perspektiv imkanlar açdı. Müstəqilliyin əldə edilməsi xalqımıza çox baha başa gəldi. Erməni faşistləri ilə uzun sürən ağır müharibə respublikanın iqtisadiyyatına böyük zərbə vurdu. İqtisadiyyatda baş verən böhran bütün sosial, mədəni sahəyə, xüsusilə kitabxana işinə də olduqca mənfi təsir göstərən kitabxananın maliyyələşdirilməsi üçün ayrılan vəsait ciddi surətdə ixtisar edildi. Kitabxanaların maddi-texniki bazasını möhkəmləndirmək, kitab fondunu komplektləşdirmək, yeni jurnal və dövri mətbuat almaq üçün vəsait ayrılmaması onların fəaliyyətini olduqca zəiflətdi. 90-cı illərin əvvəllərində RETK-nın fəaliyyətin-





də ciddi durğunluq baş verdi. Bu hər şeydən əvvəl, kitabxananın inkişafı üçün vəsaitin ayrılması ilə bağlı idi. 80-ci illərlə müqayisədə hazırda RETK-ya daxil olan yeni elmi-texniki ədəbiyyatın və müxtəlif informasiya daşıyıcılarının miqdarı 15-20 dəfə azalmışdır. Təkcə bunu göstərmək kifayətdir ki, son illər kitabxanaya Azərbaycandan xaricdə nəşr olunan rus və digər xarici dillərdə heç bir kitab demək olar ki, alınmır. Elmi-texniki referativ jurnalların alınmaması respublika texniki elmlərin öyrənilməsinə olduqca mənfi təsir göstərir.

Respublika Elmi-Texniki Kitabxanasının inkişafını şərtləndirə biləcək Aşağdakı bir sıra tövsiyələri məsləhət bilirik:

- Dünya miqyasında elmi-texniki mövzulu sənəd oxunanda elektron sənədlərin xüsusi çəkisinin artması ilə əlaqədar olaraq sənəd-informasiya fonduna belə sənədlərin alınmasına (komplektləşdirmə) diqqət artırılmalı, Azərbaycan elmi və istehsalat müəssisələrinin tələbatına uyğun elektron sənədlər alınmalıdır.
- Respublikada iqtisadi inkişafın nəticəsində yüzlərlə yeni sənaye müəssisələri, xarici şirkətlərin nümayəndəlikləri açılmışdır. Kitabxana həmin qurumlarla müqavilələr bağlamaqla, həmin qurumların mütəxəssislərinə müxtəlif növ kitabxana-biblioqrafiya xidməti göstərməklə, öz xidmətinin əhatə dairəsini genişləndirə bilər.
- RETK-nın maddi-texniki bazasının möhkəmləndirilməsi ilə əlaqədar olaraq ayrılan maliyyə vəsaitinin həcmi artırılmalıdır.
- Kitabxananın vahid informasiya xidməti şəbəkəsinin yaradılması üçün yeni binanın tikintisinə ehtiyac vardır.

Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" Qanununda qeyd edildiyi kimi, kitabxananın maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə dövlət və qeyri-dövlət inkişaf fondları təsis edilə bilər (mad.29). Belə fondlar isə hüquqi və fiziki şəxslərin könüllü ayırmaları və məqsədli kommersiya tədbirlərindən daxil olan vəsaitlər hesabına yaradıla bilər.

## ƏDƏBİYYAT

*1.Xələfov A.A. Respublika Elmi-Texniki Kitabxanası.- B.; 2001.- 36s*

*2.Xələfov A.A. Kitabxanaşünaslığa giriş.- B.; 2000.- 400s*

*3.Baxşəliyev Z.İ. Respublika Elmi-Texniki Kitabxanası// Kitabxanaşünaslıq və biblioqrafiya.- B.,2000., N.2.- 3.23-29.*

*4.Respublika Elmi-Texniki Kitabxanasının hesabatı.- 2010*

*5.Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu.- B., 1999.-5s*

*6.Məmmədəli M.Ə. Azərbaycan Respublikasında Elmi və Elmi-Texniki Kitabxana şəbəkələrinin formalaşması və inkişafı// Kitabxanaşünaslıq və informasiya.- B., 2013,N.1(10).-373-79.*

## YEARS OF INDEPENDENCE, THE SCIENTIFIC LIBRARY OF LOGISTICS BASE

**M. MAMMADOV**

*SUMMARY*

*The article is material-technical base of the Republican Scientific and Technical Library of the modern state and its component parts, so the requirements are reflected in the measures taken by the state in recent years.*

***Keywords:*** *Republican Scientific-Technical Kitabxanas,. The material-technical base and its composition, Standardization, Metrology and Patent Agency, the Patent, Standard and normative and technical documentation Foundation.*

## СОСТОЯНИЕ МАТЕРИАЛЬНО-ТЕХНИЧЕСКОЙ БАЗЫ РЕСПУБЛИКАНСКОЙ НАУЧНО-ТЕХНИЧЕСКОЙ БИБЛИОТЕКТ В ГОДЫ НЕЗАВИСИМОСТЬИ

**М.МАМЕДОВ**

***РЕЗЮМЕ***

*Статья материально-техническая база Республиканской научно-технической библиотеки современного государства и его составных частей, так что требования отражены в мерах, принятых государством в последние годы.*

*Клучевые слова- республиканский научно-технический библиотека, материально-техническая юаза, стандартизация, государственная агентство по метрологиupотентам, республиканский фонд по потентов, стандартов и нарматинвно-технических документов.*